# Dövlət Statistika Komitəsində işgüzar görüş keçirilmişdir



Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2012-ci il tarixli, 2621 №-li Sərəncamı ilə təsdiq edilmiş "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"nın IV bölməsinin 9-cu bəndlərinin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirməsinin təmin edilməsi məqsədilə Dövlət Statistika Komitəsində aprel ayının 5-də Məlumatların yayılması şöbəsi tərəfindən "Coğrafi informasiya sisteminin yaradılması və inkişaf etdirilməsi" mövzusunda görüş keçirilmişdir. Görüşdə Aparatın işçi qrupunun üzvləri ilə birgə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin əməkdaşları-işçi qrupunun üzvləri iştirak etmişlər. Məlumatların yayılması şöbəsinin müdiri-işçi qrupun rəhbəri Meri Əmirova Dövlət Statistika Komitəsində coğrafi informasiya sisteminin tətbiqi barədə ətraflı danışmışdır. Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin əməkdaşları coğrafi informasiya sisteminin tətbiqi imkanlarının öyrənilməsi barədə geniş məlumat vermişlər. Sonda bu sahədə əməkdaşlığın formaları nəzərdən keçirilmiş və işlərin davam etdirilməsi barədə razılıq əldə olunmuşdur.

